*Cavadova Esmira.Həsən bəy Zərdabi və “Əkinçi” qəzeti*
*//Elmi əsərlər,2022,1(14),yanvar-iyun,s.76-79.*

**MƏTBUAT**

UOT: 070+633.71(479.24)

**Esmira Cavadova**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
esmira.cavadova@gmail.com

# HƏSƏN BƏY ZƏRDABİ VƏ “ƏKİNÇİ” QƏZETİ

**Açar sözlər:** *Həsən bəy Zərdabi, “Əkinçi” qəzeti, Azərbaycanda tütünçülük*

Həsən bəy Zərdabi çoxsahəli yaradıcılığa malik bir ziyalı idi. Təbiətşünas, torpaqşünas alimin “Əkinçi”nin 1876 №4, 29 fevral (3, s.4), “Əkin və Ziraət xəbərləri”, 1876 №15, 9 avqust (4, s.4), 1876 №16, 23 avqust (5, s.4), 1876 №19, 8 oktyabr (6, s.4) saylarının “Əfali-əhli-dehat” bölmələrində əkinçiliklə bağlı silsilə məqalələri çap olunmuşdur. Bu saylardakı məqalələrində torpaqşünas alim yazırdı ki, torpaqdan yüksək məhsul götürməyin başlıca işi onun şumlanmasından, əkinə hazırlanmasından, səpinin vaxtında keçirilməsindən, həm də onun düzgün suvarılmasından, gücdən düşəndə dincə qoyulmasından, qüvvətləndirmək üçün müxtəlif peyinlərin qatışdırılmasından, eləcə də torpağın xüsusiyyətini, onun hansı bitki üçün yararlı, sərfəli olduğunu müəyyən etməsindən asılıdır. Zərdabi əkin ilə əlaqədar torpağı əkin üçün yararlı hala salmaq, münbitliyini artırmaq, şoran torpağın duzunu yumaq, hər bir torpaq tipinə uyğun taxıl növləri seçmək, ona uyğun şum alətləri tətbiq etmək və s. məsələlərə toxunmuş, bu haqda faydalı məsləhətlər vermişdir. Torpağın suvarılması işi kəndlilərin ən böyük dərdlərindən biri idi. Bu çətinliyi aradan qaldırmaq üçün torpaqşünas alim kəndlilərə “Əkinçi”, 1876 №21, 6 noyabr (7, s.1), “Əfali-əhli-dehat” bölməsində gedən məqaləsində əkinçilərə məsləhət verərək yazırdı: “... Əvvəllər, məsələn 20-30 il bundan əqdəm bizim Kür çayı hər ildə daşıb ətrafı qərq edərdi ki, oralarda olan çalarlardan birə əlli hasil gəlirdi. Amma indi ol çay 3-4 ildə bir dəfə də daşmır və daşanda da ətrafı elə qərq etmir. Avam bunu görəndə deyir ki, su azalıb və keçən günü yada salıb ah çəkir. Doğrudur, su azalıb və buna səbəb odur ki, zikr olan çayın başında sakin olan kəslər odun bahalandığına orada olan meşələri qırıb azaldırlar. ... Xülasə, meşə çox olduğuna insanlar onların xeyrini bilməyib... onları tələf ediblər. ... Bizim Qafqazda da bıçaq sümüyə dirənibdir, yəni biz də meşələrimizi qırıb tələf etmişik və hər tərəfdən yayda müsəlla sədası və qışda təzək tüstüsü gəlir. “Əkinçi”, 1875 №3 “Əkin və Ziraət Xəbərləri”, 21 avqust (2, s.2) sayında isə Həsən bəy yazır ki, ... indi təzədən meşə salmaq gərək ki, su artsın. Lakin təzə meşə gəlib meşə olunca, qeyri tövr ilə bunun çarəsinin dalınca olmaq gərək, ya arx qazmaq ilə, ya maşın, ya çarx qurmaq ilə, ya da dağların ətəyində bəndlər bağlayıb oralarda qışda əmələ gələn suyu saxlayıb sonra işlətmək ilə əkini sulamaq lazımdır. Birdə hər əkinçiyə məlumdur ki, daşmış çay suyu ilə sulanan yer, arx ilə sulanan yerdən artıq hasil gətirir. Buna səbəb odur ki, yazda ətrafda olan yerlərdən su gəlməkdən çay daşır və su ol yerlərdən gələndə xırda daşları, yəni torpağı aparmaqdan lilli olur ki, bu lil əkin yerini qüvvətli edir. Lilli suyu arxlarda saxlayıb, lil arxın dibinə yığılanda onu yığıb aparıb əkin yerinə tökməklə də yeri qüvvətli etmək olar. Və bu yerin torpaqları münbit olur. Zərdabi əkinçilərə belə münbit torpaqlardan daha geniş istifadə etməyi məsləhət görürdü.

İndi əkinçilərimiz bu üsuldan istifadə etməklə yanaşı, əkin sahələrində qazılan artezian quyularının suyundan, çaylardan çəkilmiş suvarma kanallarından, əkin boyu

çəkilmiş arxlardan istifadə etməklə əkinlərini sulayırlar. Çünki müstəqil və qalib olan dövlətimiz bütün sahələrin inkişafına diqqət və qayğı ilə yanaşdığı üçün əkinçilik sahələrinin inkişafina da xeyli vəsait ayırmışdır.

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan ərazisində buğda, arpa, qarğıdalı, çovdar, pərinc, mərci kimi dənli bitkilərlə yanaşı, bostan-tərəvəz və texniki bitkilər də əkilirdi. Bu bitkilərin hər biri haqqında, eləcə də Azərbaycanda bir-birindən fərqli olaraq yaradılmış çala, tala, dincəqoyma, herik əkinçilik sistemləri haqqında "Əkinçi" qəzetində Həsən bəy Zərdabi tərəfindən ətraflı məlumat verilirdi. Adı çəkilən dənli bitkilərin, istərsə də bostan-tərəvəz bitkilərinin hər mövsümdə yüksək məhsul verməsi qeyri mümkün idi. Bu havaların quraq keçməsi, suyun lazımi qədər olmaması ilə əlaqədar idi. Əlbəttə, belə vəziyyət əkinçinin maddi durumuna pis təsir edirdi. Əkinçinin həyat və yaşayışını yaxşılaşdırmaq məqsədilə belə bir dövrdə (bu dövr Azərbaycanda kapitalist münasibətlərinin inkişaf etməyə başladığı bir dövr idi) Həsən bəy Zərdabi əkinçilərə tütünçülük kimi bir təsərrüfat sahəsini inkişaf etdirməyi tövsiyə edirdi. Və bu sahənin iqtisadi cəhətdən faydalı olduğunu əhaliyə başa salırdı. Odur ki, bu bitkidən yüksək məhsul götürmək üçün onun növləri, əkilib-becərilməsi qaydası, xəstəlikləri, yetişdirilmiş tütünün yığılması, qurudulması, saxlanılması haqqında "Əkinçi" 1877, №8, 14 aprel (7, s.3), "Əfali-əhli-dehat" bölməsində yazırdı:

Tənbəki 2 qism olur: birisi Amerika tənbəkisi ki, onun yarpaqlarının ucu şiş və çiçəkləri qırmızıdır və birisi Osmanlı tənbəkisi ki, onun yarpaqlarının ucu girdə və çiçəyi sarımtıldır. Bu iki qismin hər biri bir neçə cürə olur.

Tənbəkinin yaxşı-yamanlığına səbəb onun hansı qismdən olmağı deyil, onu necə əkib-becərmək və qurudulub saxlanılmasıdır. Tənbəki qumustan və çox gilli yerdən başqa hər yerdə əmələ gəlir, amma onun üçün qara, yəni meşə yeri yaxşıdır (burada torpağın münbitliyi nəzərdə tutulur). Bu yeri toxumlayandan irəli 3-4 dəfə çox dərin şum edib, ona insan, ya at, ya da mal peyini qarışdırıb qüvvətləndirmək gərək. Çünki tənbəki gərək tez əkilsin yoxsa belədə baharın sübh soyuğundan tələf olar. Onu fevralın 15-dən aprelin 15-cən işıq və soyuq olmayan bir evdə, qutularda əkib sonra isti düşəndə çıxarıb əkin yerində şitil edirlər. Eni və uzunu 5 arşın olan qutuda 3-5 misqal toxum bitirmək olur. Hər 4 desyatin yerə bir girvənkə toxumun şitili bəsdir və bir də qutuda toxum çıxanda onların yeri dar olsa, yaxşı olar ki, onu çıxarıb bir böyük qutuda şitil edib, sonra əkin yerinə şitil edəsən. Tənbəkini may ayının əvvəlindən axırınacan əkin yerinə şitil etmək gərəkdir. Daha sonra H.Zərdabi məqalədə əkinçilərə tütünə qulluq etmə qaydasını da öyrədir. Yazır ki, şitil olandan 2 gün əvvəl yeri bir dəfə də şum edirlər və əgər yer çox nəmiş deyilsə, şitili çıxardıb basdırandan on beş dəqiqə irəli sulayırlar. Əkin yerindən bir-birindən bir arşın olmaqla cızıqlar çəkib, o cızıqlarda şitili bir-birindən 3 çərək aralı basdırırlar və əgər hava isti isə hər şitilin üstünü ot ilə 1-2 gün örtürlər və bir həftədən sonra qurumuş şitilləri çıxarıb onun yerinə təzə şitil basdırırlar. Tənbəkini 1-2 həftənin müddətində hər 2, ya 3 gündən bir əl ilə sulayır, 2 həftədən sonra cızıqların arası ilə gedib onların dibini əl ilə torpaqlamaq gərək və ya kiçik kotan kimi iki tərəfli aləti ata qoşub, cərgələrin arası ilə sürmək gərək ki, kotan torpağı hər iki tərəfə atıb, tənbəkinin dibini torpaqlasın. Bu qayda ilə əkilib-becərilən bir desyatin yerdən 57-120 pudacan tənbəki almaq olur ki, bunun da hər pudu 1-5 manata satılır.

Həsən bəy Zərdabi tənbəki toxumunun əldə edilməsi üsulları haqqında da əkinçilərə məlumat verirdi. Yazırdı ki, toxumdan ötrü saxlanan otları bir-birindən aralı əkmək lazımdır. Onların başında olan çiçəklərdən toxum əmələ gələndən sonra bu çiçəkləri yolub, toxum quruyandan sonra onları xaş-xaş başı kimi dərib qışda saxlayıb, baharda isə başlardan çıxarıb toxumu əkmək gərək.

Böyük torpaqşünas alim H.B.Zərdabinin tütün sahələrinin becərilməsi və alınan məhsulun emalı haqqında yazdığı məlumatlara əməl edilərsə bu bitkidən çox gəlir əldə etmək olar fikrini təsdiqləmək olar.

Heç təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı 2016-cı il 5 oktyabr tarixində "Ölkədə tütünçülüyün inkişafına dövlət dəstəyini gücləndirmək, bu sahənin potensial imkanlarından səmərəli istifadə etmək, rəqabət qabiliyyətini yüksəltmək və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahının daha da yaxşılaşdırılması" məqsədilə qərar qəbul etmişdir (1, s.4).

Məqalədən aydın olur ki, Həsən bəy Zərdabi yaşadığı dövrdə xalqın güzəranının yaxşılaşdırılması məqsədilə əkinçilərə tütünçülük istehsalı ilə məşğul olmasını da tövsiyə edir, onun əkilib-becərilməsi qaydasını "Əkinçi" qəzeti vasitəsilə onlara öyrədirdi. Heç ağlına gələ bilməzdi ki, onun tövsiyələrini indi müstəqil dövlətimiz həyata keçirir, tütünçülərə yüksək səviyyədə dövlət dəstəyi göstərilir.

Böyük mütəfəkkir Həsən bəy Zərdabinin fikirləri bizim–üçün ona görə dəyərlidir ki, onun "Əkinçi" qəzeti səhifələrində qaldırdığı məsələlərin bəziləri bu günümüzlə də səsləşir və aktualdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında: AR prezidentinin sərəncamı. Bakı, 2016, 5 oktyabr // Azərbaycan. 2016. – 6 oktyabr.
2. Zərdabi H. "Əkinçi". – 1875, №3, 21 avqust, "Əkin və Ziraət xəbərləri".
3. Zərdabi H. "Əkinçi". – 1876, №4, 29 fevral, "Əkin və Ziraət xəbərləri".
4. Zərdabi H. "Əkinçi". – 1876, №15, 9 avqust, "Əfali-əhli-dehat".
5. Zərdabi H. "Əkinçi". – 1876, №16, 23 avqust, "Əfali-əhli-dehat".
6. Zərdabi H. "Əkinçi". – 1876, №19, 8 oktyabr, "Əfali-əhli-dehat".
7. Zərdabi H. "Əkinçi". – 1877, №8, 14 aprel, "Əfali-əhli-dehat".

***Эсмира Джавадова***

**ГАСАН БЕК ЗАРДАБИ И ГАЗЕТА «ЭКИНЧИ»**

**Резюме**

В период жизни Гасан бека Зардаби (XIX – начало XX вв.) в Азербайджане уже начали развиваться капиталистические отношения. Для повышения заработков Гасан бек Зардаби советовал земледельцам наряду с традиционными для них отраслями, развивать также табаководство. С этой целью на страницах газеты «Экинчи» выдающимся ученым-землеведом была опубликована серия статей по методам выращивания табака.

**Ключевые слова**: *Гасан бек Зардаби, газета «Экинчи», табаководство в Азербайджане.*

***Esmira Javadova***

**HASAN BEY ZARDABI AND "EKINCHI" NEWSPAPER**

**Summary**

During the life of Hasan bey Zardabi (XIX - early XX centuries), capitalist relations have already begun to develop in Azerbaijan. In order to increase their earnings, Hasan bey Zardabi was advising farmers, along with their traditional industries, to develop tobacco growing as well.For this purpose, a series of articles on the methods of tobacco cultivation was published on the pages of the newspaper "Ekinchi" by an outstanding scientist-geographer.

**Key words:** *Hasan bey Zardabi, "Ekinchi" newspaper, tobacco growing in Azerbaijan.*

*Redaksiyaya daxil olma tarixi: 13.01.2022*
*Çapa qəbul olunma tarixi: 12.02.2022*

*Filologiya elmləri doktoru Paşa Kərimov tərəfindən*
*çapa tövsiyə olunmuşdur.*